AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

Əlyazması hüququnda

**ZAHİDƏ TOFİQ QIZI RZAYEVA**

# RESPUBLİKA ELMİ KİTABXANALARINDA İNFORMASİYA AXTARIŞ SİSTEMLƏRİNİN FORMALAŞMASI MƏRHƏLƏLƏRİ (M.F.AXUNDOV ADINA MILLI KITABXANA, AMEA-NIN MƏRKƏZI ELMI KITABXANASI, RESPUBLIKA ELMI-TEXNIKI KITABXANASI (1960-2005-CI ILLƏR)

**İxtisas: 3356.01**
**Kitabxanaşünaslıq; biblioqrafiyaşünaslıq və kitabşünaslıq**

**tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin
Kitabxana resursları və informasiya axtarış sistemləri
kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Xəlil İsmayıl oğlu İsmayılov**<br>Əməkdar mədəniyyət işçisi,<br>tarix elmləri doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Aybəniz İbrahim qızı Əliyeva-Kəngərli**<br>filologiya üzrə elmlər doktoru, professor<br>**Kərim Məhəmməd oğlu Tahirov**<br>tarix üzrə fəlsəfə doktoru, professor |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Pedaqoji Universiteti** |

Dissertasiya işinin müdafiəsi _10__ fevral 2015-ci il saat ____-da keçiriləcəkdir.

Ünvan: AZ 1148. Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat ___ __________ 2015-ci ildə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya**
**Şurasının elmi katibi:** **dos. E.Y.Əhmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən bir təsisat kimi kitabxaanalar informasiyalaşmış cəmiyyətin formalaşmasında mühüm vasitə rolunu oynayırlar. Digər tərəfdən, kitabxanalar müxtəlif növlü sənədlərin saxlandığı məkan olmaqla yanaşı, yeni informasiya texnologiyaları sayəsində qlobal informasiyanın dünya informasiya məkanına inteqrasiya prosesini həyata keçirən sosial institut kimi də fəaliyyət göstərirlər. İnformasiyalaşmış cəmiyyətin formalaşması konsepsiyası XX əsrin 90-cı illərində meydana çıxsa da, yalnız 2003-cü ilin dekabrında BMT və YUNESKO-nun Cenevrədə keçirilən İnformasiya cəmiyyəti üzrə Ümumdünya Sammiti informasiya cəmiyyətinin qurulması vəzifəsini bəşəriyyətin inkişafının mühüm şərti kimi qarşıya qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin sammitdə çıxış edərək informasiya-kommunikasiya texnologiyalarının həyatımızın tərkib hissəsinə çevrildiyini və bu sahənin Azərbaycanda da sürətlə inkişaf erdiyini vurğulamışdır.

Son illərdə cəmiyyətin sənəd-informasiya təminatının ödənilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi sahəsində ciddi addımlar atılmışdır və sosial institut, elm, təhsil, mədəniyyət, tərbiyə, informasiya müəssisəsi kimi kitabxanalar da bu istiqamətdə mühüm işlər görürlər. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev M.F.Axundov adına Milli Kitabxanada çıxış edərkən demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"[1].

Bu məsuliyyətli vəzifənin icrası eyni zamanda qanunvericiliyin tələblərindən də irəli gəlməkdədir. Belə ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut"[2] olan kitabxanalar cəmiyyətin ictimai hə-

---

[1] *Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin M.F.Axundov adına Millli Kitabxanada çıxışı //"Azərbaycan" qəz., 2007, 21 aprel.*

[2] *"Kitabxana işi haqqında"Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal, 1999, №2, s.3-16.*

yatının əsas subyektlərindən biri kimi spesifik missiyaları icra etmək kimi formalaşdırılmışlar. Belə ki, qanunvericilikdə təsbit edildiyi kimi, indiki dövrdə "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaşın yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir"[1].

Modern texnologiyaların tətbiqinə əsaslanan, informasiyalaşdırılmasına ehtiyac olan ən mühüm sahələrdən biri də kitabxana işidir. Bu sahədə informasiyalaşdırma çoxistiqamətli və mürəkkəb problemdir. Prezident İlham Əliyevin 2007-ci il aprelin 20-də imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamı[2] və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"[3] kitabxanaların fəaliyyətinin gələcək prioritet istiqamətlərini özündə əks etdirir.

Məhz tədqiq edilən tarixi intervalda elmi kitabxanalar şəbəkəsinin fəaliyyətinin hərtərəfli təhlil edilməsi, qazanılmış uğurların ümumiləşdirilməsi, buraxılmış nöqsanların müəyyən edilməsi və səbəblərinin aydınlaşdırılması sözügedən istiqamətdə müəyyən nəticələr çıxarmağa real imkanlar yarada bilər.

Beləliklə, "Respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin formalaşması mərhələləri (M.F.Axundov adına Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Respublika Elmi-Texniki Kitabxanası (1960-2005-ci illər)" mövzusunda yazılmış dissertasiya işi kifayət qədər aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Dissertasiya işinin ayrı-ayrı aspektləri müxtəlif tarixi dövrlərdə ayrı-ayrı elmi məktəblərin, görkəmli kitabxanaşünas alim və tədqiqatçıların elmi əsərlərində araşdırılmışdır. Prof. A.Xələfovun elmi yaradıcılığında, o cümlədən Azərbaycanda kitab-

---

[1] *"Kitabxana işi haqqında"Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal, 1999, №2, s.11.*

[2] *"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında "Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Azərbaycan" qəz., 2007, 21 aprel.*

[3] *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal (Bakı Universiteti Nəşriyyatı), 2008, №2, s.7-30.*

xana işinin tarixinə həsr etdiyi namizədlik və doktorluq dissertasiyalarında, habelə "Kitabxanaşünaslığa giriş", "Azərbaycanda kitabxana işinin tarixi", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı dərslik və monoqrafiyalarında, dövri mətbuatda dərc edilmiş məqalələrində sözügedən problem və onun ayrı-ayrı istiqamətləri geniş şəkildə şərh edilmişdir.[1]

Bu mövzu ilə bağlı prof. X.İsmayılov[2], dos. Ə.Rüstəmov[3], dos. M.Məmmədov[4], dos. N.İsmayılov[5], dos. K.Aslan[6] və başqaları öz elmi tədqiqat işlərində problemin müxtəlif istiqamətlərinə dair bir sıra əsərlər çap etdirmişlər. Lakin bütövlükdə Azərbaycanda elmi kitabxanalar şəbəkəsinin fəaliyyəti, xüsusilə elmi kitabxanaların informasiya axtarış sistemlərinin formalaşması, inkişafı və müasir vəziyyəti geniş şəkildə tədqiqat obyekti olmamışdır.

---

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1958). Bakı, 1974, 244 s.; Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı, 1998, 130 s.; Kitabxanaşünaslığa giriş. H.1-2. Bakı, 2001, 400 s.; Kitabxanaşünaslığa giriş. H.3. Bakı, 2003, 314 s.; Azərbaycanda kitabxana işinin tarixi. H.1. B., 2004, 326 s.; Azərbaycanda kitabxana işinin tarixi. H.2. Bakı, 2007, 552 s.; Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı, 2006, 321 s.*

[2] *İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafifya. Bakı, 2000, 440; Azərbaycanda kitabxanaların metodik təminat sisteminin təkmilləşdirilməsinin bəzi məsələləri // Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası, 2002, №2, s.144-148.; 1965-1975-ci illərdə Azərbaycanda kitabxana işinin metodik təminatı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal, 1999, №2, s.33-49.*

[3] *Rüstəmov Ə. Respublika soraq-informasiya fondlarının avtomatlaşdırılması: Monoqrafiya. Bakı, 1990, 220 s.*

[4] *Məmmədov M. Respublika Elmi-Texniki Kitabxanasında KAA-nın təşkili. Bakı, 1994, 44 s.*

[5] *İsmayılov N. Azərbaycan Respublikasının kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri,vəziyyəti və təkmilləşdirilməsi yolları. Bakı, 2005, 296 s.; Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi. Bakı, 2003, 111 s.*

[6] *Aslan K. Azərbaycanda təhsil sisteminə kitabxana-informasiya xidməti: Dərs vəsaiti. Bakı, 2007, 130 s.; Dünya kitabxanaları tarixi (XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək): Dərs vəsaiti. Bakı, 2010, 448 s.; İnformasiya cəmiyyəti şəraitində gənclərə kitabxana xidmətinin müasir problemləri // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal (Bakı Universiteti Nəşriyyatı), 2010, №3, s.15-25.*

Bu baxımdan hazırkı dissertasiyada respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin formalaşması mərhələləri Azərbaycanın müstəqilliyi illərində ilk dəfə olaraq kompleks şəkildə araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin qarşısında duran başlıca məqsəd Azərbaycanda elmi kitabxanalar şəbəkəsinin informasiya axtarış sistemlərinin formalaşması mərhələləri, xüsusiyyətləri, tarixi təkamülü, konkret olaraq müasir vəziyyəti və sistemin təkmilləşdirilməsi və yaxud optimallaşdırılması yollarının araşdırılması və öyrənilməsidir.

Tədqiqat zamanı tədqiqatçı tərəfindən qarşıya qoyulan əsas məqsədə nail olmaq üçün M.F.Axundov adına Milli Kitabxananın, Azərbaycan MEA MEK-ın və Respublika Elmi-Texniki Kitabxanasının arxivində axtarışlar aparılmış, hesabat materialları, dövri mətbuatda dərc edilən məlumatlar, informasiya axtarış sistemlərinin yaranması, inkişafı və müasir vəziyyəti ilə əlaqədar olan sənədlər sistemli şəkildə tədqiq edilmişdir.

Tədqiqatın məqsədi aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsini zərurət kimi qarşıya qoymuşdur:

- Azərbaycanda respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin tətbiqi və formalaşmasının spesifik xüsusiyyətlərinin tədqiq edilməsi;
- Respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin tarixi inkişafı xüsusiyyətləri və müasir vəziyyətinin empirik tədqiqi;
- Tədqiq edilən dövrdə M.F.Axundov adına Milli Kitabxananın, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının və Respublika Elmi-Texniki Kitabxanasının informasiya axtarış sistemlərinin yaranması və formalaşmasının səmərəliliyinin öyrənilməsi və qiymətləndirilməsi, elmi-tədqiqatların yerinə yetirilməsi məqsədilə elmi işçilər tərəfindən istifadə imkanlarının müəyyənləşdirilməsi;
- Respublika elmi kitabxanalarının informasiya axtarış sistemlərinin konkret modellərinin təhlilinin verilməsi;
- İnformasiya axtarış sistemlərinin müqayisəli tədqiqi;
- Respublika elmi kitabxanalarının informasiya axtarış sistemlərinin təkmilləşdirilməsi istiqamətində əsaslandırılmış tövsiyə və təkliflərin verilməsi.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikası elmi kitabxanalarının informasiya axtarış sistemləri təşkil edir. Tədqiqat məqsədilə M.F.Axundov adına Milli Kitabxana, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası və Respublika Elmi-Texniki Kitabxanası obyekt kimi seçilmişdir.

**Tədqiqatın predmeti** Azərbaycan Respublikası elmi kitabxanalarının informasiya axtarış sistemlərinin yaranması qanunauyğunluqları, inkişaf mərhələləri, müasir vəziyyəti, təkmilləşdirilməsi istiqamətlərinin və yollarının müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Tədqiqatın nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının Konstitusiyası, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu, elm, təhsil, informasiya işi və informasiya texnologiyaları haqqında Azərbaycan Respublikasının qanunları, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində aparılmış tədqiqatlar, konkret elmi kitabxanaların hesabatları, kitabxanaşünas və biblioqrafiyaşünas alimlərin zəngin təcrübəsi nəticəsində meydana çıxan elmi-tədqiqat işlərinin tövsiyələri təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı kompleks metodlardan istifadə olunmuş, sahə üzrə statistik və hesabat materialları təhlil edilmiş, bu zaman sistemli yanaşma metodu əsas götürülmüş, araşdırılan problemlərə dair ədəbiyyatın nəzəri təhlilinə, həmçinin uzunmüddətli müşahidələrin nəticələrinə diqqət yetirilmişdir. Bununla yanaşı, tədqiqat aparılan elmi kitabxanaların iş təcrübəsinin, İnternet resurslarının öyrənilməsi və ümumiləşdirilməsi, istifadəçilərlə söhbətlərin, müsahibələrin keçirilməsi metodlarına da müraciət olunmuşdur

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi aşağıdakı amillərlə səciyyələnir:

- dissertasiya işi arxiv sənədləri, faktiki və statistik materialların elmi dövriyyəyə daxil edilməsi əsasında Azərbaycan Respublikası elmi kitabxanalarının informasiya axtarış sistemlərinin formalaşmasını, inkişaf mərhələlərini, müasir vəziyyətini, yeniləşməsi problemlərini əks etdirən ilk kompleks xarakterli elmi tədqiqat əsəridir;
- dissertasiya işində ilk dəfə olaraq ölkənin iri elmi kitabxanalarının – M.F.Axundov adına Milli Kitabxananın, AMEA Mərkəzi Elmi Kitabxanasının və Respublika Elmi-Texniki Kitabxanasının informasiya axtarış sistemlərinin yaranması və tarixi inkişaf mərhələləri sistemli şəkildə tədqiq edilmiş, mühüm elmi ümumiləşdirmələr aparılmışdır;
- dissertasiya işində müstəqillik illərində Azərbaycan Respublikasında elmi kitabxanalarının informasiya axtarış sistemlərinin inkişafının əsas istiqamətləri, müasir standartlara cavab verilməsi sahəsindəki problemləri və perspektivləri ilk dəfə araşdırmaya cəlb olunmuşdur;
- dissertasiya işində yeni kitabxana-informasiya texnologiyalarının elmi kitabxanaların informasiya axtarış sistemlərinin təşkili proseslərinə

tətbiqi məsələləri öyrənilmiş, bu texnologiyaların informasiya axtarış sistemlərinin operativliyinə və kompleksliliyinə təsiri araşdırılmışdır;

- tədqiqatda Azərbaycan Respublikası elmi kitabxanalarının informasiya axtarış sistemlərinin bütövlükdə informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun inkişafı üçün təkliflər verilmişdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu ilə bağlı iddiaçının 19 elmi məqaləsi və tezisi çap edilmişdir. Dissertasiya işi elmi seminarlarda, ayri-ayrı elmi konfranslarda geniş müzakirə edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"**ində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi, vəzifələri, obyekti, predmeti, nəzəri-metodoloji əsasları, tədqiqat metodları, elmi yeniliyi, aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiya işinin I fəsli **"1960-1980-ci illərdə respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin vəziyyəti və inkişaf istiqamətləri"** adlanır. Bu fəslin **"M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında informasiya axtarış sistemlərinin formalaşması"** adlı 1-ci paraqrafında qeyd edilir ki, Milli Kitabxananın fəaliyyət tarixi Azərbaycan xalqının mədəniyyət, o cümlədən kitabxana-biblioqrafiya tarixinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilməlidir. Milli Kitabxana əsrlər boyu xalqımızın yaratdığı intellektual mülkiyyəti və ümumbəşəri mənəvi sərvətləri mühafizə edən, bu misilsiz milli xəzinənin nəsildən-nəslə ötürülməsini təmin edən, ölkənin zəngin informasiya mühitini formalaşdıran ən böyük informasiya mərkəzi kimi müstəqil dövlətimizin əvəzsiz sərvətidir. 1923-cü il mayın 23-də Bakı şəhərində təşkil edilmiş Milli Kitabxana oxucuların ixtiyarına verilərkən onun fondunda 20.441 nüsxə kitab var idi. Kitabxanada cəmi 13 nəfər kitabxanaçı işləyirdi[1].

---

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. H.2. Bakı, 2007, s.273-274.*

Zaman keçdikcə Milli Kitabxananın informasiya axtarış sistemləri formalaşaraq inkişaf etmiş, soraq-biblioqrafiya və məlumat-biblioqrafiya fəaliyyətində xeyli canlanma nəzərə çarpmış, bu xidmət növlərinin məzmununda dövrün tələblərinə uyğun mühüm dəyişikliklər baş vermişdir.

XX əsrin 50-60-cı illərində Milli Kitabxanada informasiya axtarış sistemlərinin təkmilləşdirilməsi, soraq-biblioqrafiya aparatının və kataloq-kartoteka sisteminin daha da yaxşılaşdırılması oxuculara kitabxana-informasiya xidmətini kökündən dəyişmişdi. Burada Soraq-biblioqrafiya şöbəsinin yaradılması ölkəmizdə həmin sahənin inkişafına böyük təkan verdi.

Tədqiqat dövründə Milli Kitabxananın əldə etdiyi ən mühüm nailiyyətlərdən biri kadr potensialında ali kitabxanaçılıq təhsili almış mütəxəssislərin xüsusi çəkisinin artması olmuşdur. Belə ki, kitabxanaya BDU-nun kitabxanaçılıq şöbəsini, Rusiyanın dövlət kitabxanaçılıq institutlarını bitirmiş ilk məzunlar qəbul edilmiş, mürəkkəb iş prosesinə cəlb olunmuşdular. Kitabxana fəaliyyətinin təşkili, idarə olunması və inkişafında qocaman kitabxana işçilərinin də müstəsna xidmətləri olmuşdur.

XX əsrin 60-80-ci illərdə Milli Kitabxananın informasiya resursları dinamik inkişaf edərək Azərbaycanın elmi, tarixi, mədəni, iqtisadi inkişaf xüsusiyyətlərinə, oxucuların informasiya tələbatlarına uyğun şəkildə formalaşmış, intensiv şəkildə zənginləşmişdir. Bu dövr eyni zamanda Milli Kitabxananın elmi-metodik fəaliyyətinin yeni inkişaf mərhələsinə daxil olması kimi xarakterizə edilir. Belə ki, burada soraq-biblioqrafiya aparatının təşkilinə, müxtəlif oxucu qruplarına, xüsusən elmi işçilərə şifahi və yazılı biblioqrafik arayışların verilməsinə mühüm diqqət yetirilirdi. Kitabxananın informasiya axtarış sistemində mühüm yer tutan kataloq və kartotekalar hər il genişlənir və yeni materiallarla zənginləşirdi. Bu dövrdə Milli Kitabxananın kataloq sisteminin təkmilləşməsində S.Məmmədova, T.Rzaquliyeva, R.Şankovskaya, T.Abbasov, Ə.Əliyev, M.Müsəddiq, J.Pernik, T.Seyidova və başqa əməkdaşların mühüm xidmətləri olmuşdur.

1960-cı illərdə Milli Kitabxanda ilk dəfə olaraq Azərbaycan kitabının repertuarını yaratmaq üçün təşəbbüs göstərilməyə başlanmışdı. Bu işdə 1940-cı illərin sonlarında təşkil edilmiş "Azərbaycan kitabı" arxiv fondunun əməkdaşlarının böyük rolu olmuşdur. Onlar müəyyənləşdirdikləri kitabları almaq mümkün olmadıqda onun mikrosurətlərini əldə etmiş və fondda mikrofilmləşdirilmiş bölmə yaratmışdır ki, bu da arxiv fondunun işini xeyli yaxşılaşdırmışdı. Artıq 1965-ci ildə bu fondda 300 min nüsxə kitab və 5 min dövri nəşr toplanmışdı.

Azərbaycan Mədəniyyət Nazirliyinin 1959-cu ildə təsdiq etdiyi "Əsasnamə"yə görə, 3 cilddə çapı nəzərdə tutulmuş "Azərbaycan kitabı" ümumi retrospektiv göstəricisi məhz Milli Kitabxananın "Azərbaycan kitabı" arxiv fondunun əsasında hazırlanmalı idi. Bu nəşr ilk Azərbaycan kitabından başlamış həmin dövrə qədər olan nəşrləri əhatə etməli idi. "Azərbaycan kitabı"nın 1963-cü ildə nəşr olunmuş I cildi 1780-1920-ci illərdə çap olunmuş 1329 adda mənbəni əks etdirir.

1982-ci ildə isə "Azərbaycan kitabı" biblioqrafik göstəricinin ikinci cildinin birinci kitabı çap olunmuşdur. Bu kitabda 1920-1940-cı illərdə SSRİ ərazisində Azərbaycan dilində çıxmış humanitar profilli ədəbiyyat öz əksini tapmışdır. Əski əlifba ilə çap olunmuş kitab və kitabçaların müəllifi və sərlövhəsi orijinalda olduğu kimi verilmişdir[1].

1963-cü ildə nəşr edilən "Azərbaycan kitabı"nın I cildinə daxil olmayan 500 kitabı Milli Kitabxana kollektivinin 60-cı illərin 2-ci yarısında müəyyənləşdirib elmi dövriyyəyə daxil etməsi ciddi nailiyyət idi.

Beləliklə, XX əsrin 60-80-ci illərində M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sistemləri kitab fondunun zənginləşməsində, informasiya ehtiyatlarının inkişafında, oxucular tərəfindən səmərəli istifadəsində, ədəbiyyat təbliğində, müxtəlif tipli biblioqrafik vəsaitlərin tərtibində, eləcə də biblioqrafik biliklərin yayılmasında əhəmiyyətli rol oynamış, kitabxananın biblioqrafik fəaliyyətinin bütün istiqamətlərinin sənəd-informasiya təminatçısı olmuşdur. Bütün bunlar isə bütövlükdə Milli Kitabxana sisteminin infrastruktur quruluşunun dinamikliyinə və effektivliyinə zəmin yaratmış, onun inkişaf perspektivlərini şərtləndirmişdir.

**"AMEA-nın Mərkəzi Elmi Kitabxanasında informasiya axtarış sistemlərinin formalaşması"** adlanan 2-ci paraqrafda qeyd edilir ki, elmin, təhsilin, mədəniyyətin və istehsalın müasir inkişaf səviyyəsi, məlumat axınının artımı, oxucunun məlumat tələbatının mürəkkəbləşməsi elmi kitabxanaların fəaliyyətinin daim təkmilləşməsini tələb edir. MEA sistemində və digər elmi müəssisələrdə aparılan elmi-tədqiqatların analitik-informasiya təminatı, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, kitabxana fondlarının konservasiyası və bərpası, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, müasir informasiya texnologiyasının istifadəsi və tətbiqi sahəsində fəaliyyət göstərən MEK elmi müəssisə kimi MEA sisteminin baş kitabxanasıdır.

---

[1] *Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri. Bakı, 1989, 256 s.*

Belə ki, Prof. X.İsmayılovun qeyd etdiyi kimi, 1967-ci il noyabrın 5-də MEK-ın yeni binasının açılışı kitabxananın fəaliyyətində, xüsusən onun elmi, təşkilati və metodik fəaliyyətində keyfiyyət və kəmiyyət baxımından yeni mərhələnin başlanğıcı oldu. Kitabxananın kitab fondu və xidmət işləri ilə məşğul olan şöbələrinin sahəsi orta hesabla 10 dəfə artdı, yeni avadanlıq və texniki vasitələr alındı, kadrların sayı 67-dən 122 nəfərə çatdırıldı. Eyni zamanda kitabxanada elmi biblioqrafiya, elmi-texniki informasiya, elmi tədqiqat, beynəlxalq kitab mübadiləsi, elmi-metodik adlı 5 yeni şöbə fəaliyyət göstərməyə başladı. Oxuculara səmərəli xidmət məqsədi ilə 3 oxu zalı, 2 abonement, kitabxanalararası abonement, sərgi salonu, kataloq və kartotekalar sistemi, Şərq ölkələri ədəbiyyatı zalı və s. bölmələr yenidən təşkil olundu[1].

XX əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi və qayğısı sayəsində Azərbaycan elmi böyük nailiyyətlər qazandı. Xüsusilə elmə ayrılan maliyyə vəsaiti və SSRİ Elmlər Akademiyası tərəfindən ayrılan digər ayırmalar xeyli çoxalmışdı. Azərbaycan hökumətinin qarşısında yeni elm mərkəzlərinin yaranması, MEA-nın maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi vəzifəsi qoyulmuşdu. Görülən tədbirlər nəticəsində 70-80-ci illər Azərbaycan elminin tarixində yeni mərhələ kimi səciyyələndi. Bu dövrdə ali məktəblər də daxil olmaqla elmi müəssisələrin sayı 142-dən 151-ə, o cümlədən elmi-tədqiqat institutları və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı. Elm sahələrində çalışan elmi işçilərin sayı 17 min nəfərdən 32,3 min nəfərə, elmlər doktorlarının sayı 1,8 dəfə artaraq 1186 nəfərə, elmlər namizədlərinin sayı isə 1,7 dəfə artaraq 8905 nəfərə çatmışdı[1] .

MEA-nın bu dövrdə apardığı fundamental elmi-tədqiqat işləri SSRİ miqyasında yüksək qiymətləndirilmiş, bir çox elmi-tədqiqat işləri beynəlxalq arenaya çıxmağa müvəffəq olmuşdu. 1970-ci ildə MEA-da 30 elmi müəssisə, o cümlədən 22 elmi-tədqiqat institutu, 3,3 min elmi işçi, o cümlədən 209 elmlər doktoru, 1311 elmlər namizədi fəaliyyət göstərirdi. MEA-nın 54 həqiqi və 41 müxbir üzvü var idi[2].

---

[1] *İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafifya. Bakı, 2000, s.144.*

[1] *Xələfov A. Azərbaycanda ali kitabxanaçılıq təhsili. Bakı, 1998, s.25.*

[2] *Əliyeva-Kəngərli A. AMEA MEK-80 // Elmi əsərlər: VI buraxılış. Bakı, 2005, s.26.*

MEA-nın mərkəzləşdirilmiş kitabxana sisteminə akademiyanın 24 elmi-tədqiqat institutunun və digər qurumlarının kitabxanaları daxil edilmişdi. Mərkəzləşmiş vahid kitabxananın fondunda 3 milyon nüsxəyə qədər kitab var idi. Təkcə 1984-cü ildə MEA-nın kitabxana sisteminə 96 min 141 nüsxə yeni ədəbiyyat daxil olmuşdu. Bunlardan 58.918 nüsxəsi MEK-ın, 37.837 nüsxəsi isə filialların fondlarına verilmişdi. Mərkəzləşmə nəticəsində MEK-ın maliyyə vəziyyətinin sabitləşməsi kitabxana fonduna xarici dillərdə ədəbiyyat alınmasını xeyli yaxşılaşdırmışdı.

1984-cü ildə MEK-ın fonduna 10615 nüsxə xarici nəşr, o cümlədən 1246 adda xarici jurnal daxil olmuşdu. Kitabxana respublikamızda ən çox dövri nəşrlər, xüsusilə elmi, elmi-texniki jurnallar alan müəssisə idi. Xarici ədəbiyyat fondunun ardıcıl olaraq komplektləşdirilməsi nəticəsində bu fond respublikanın kitabxanaları içərisində ən böyük fonda çevrilmişdi. 1986-cı ildə bu fonda 1 milyon nüsxədən artıq ədəbiyyat toplanmışdı.

Uzun illərdən bəri elmi-texniki informasiya xidmətini həyata keçirməyə çalışan kitabxana bu işin formalaşmasına 60-cı illərin axırlarından başlamış, nəhayət, 1973-cü ildə oxuculara elmi-texniki informasiya xidməti işini həyata keçirməyə müvəffəq olmuşdur. MEK 1976-cı ildən respublikada ilk dəfə olaraq bu sistemi qismən avtomatlaşdırmağa başlamışdı. 1980-1984-cü illərdə MEK bu sistem vasitəsilə 300 elmi problem üzrə 289 elmi-tədqiqat laboratoriyasının 3000-ə qədər elmi işçisini müntəzəm olaraq cari informasiya ilə təmin etmişdi. Bu dövrdə kitabxana respublikamızda elmi kitabların təbliğində xüsusi mövqeyə malik olmuş, burada elmi ədəbiyyatı təbliğ etmək üçün ilk sərgi salonu təşkil edilmişdi.[1]

XX əsrin 70-80-ci illərində MEK informasiya axtarış sistemlərinin təkmilləşdirilməsi məqsədilə bir sıra normativ xarakterli metodik nəşrlər hazırlayıb çap etdirmişdir. Onların arasında komplektləşdirmə, kataloqlaşdırma, "yox" cavabları ilə iş, kitabxanalarda plan və hesabatların tərtibi, kitabxana fondlarından köhnəlmiş ədəbiyyatın çıxarılması, depozitar fondların təşkili, elmi biblioqrafik nəşrlərin tərtibi metodikası, elmi işçilərə informasiya xidməti, "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından şəxsi biblioqrafik göstəricilərin tərtibi, MEK-da yazılı biblioqrafik arayışların qəbulu, ödənilməsi, saxlanılması və s. məsələlərə dair 20-dən artıq qayda, təlimat, əsasnamə və normativ sənəd hazırlanmışdır.[2]

---

[1] *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. H.2. Bakı, 2007, s.30.*

[2] *İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. Bakı, 2000, s.292.*

**“Respublika Elmi-Texniki Kitabxanasında informasiya axtarış sistemlərinin formalaşması”** adlanan 3-cü paraqrafda qeyd edilir ki, Azərbaycan milli kitabxana sisteminin əsas aparıcı halqalarından biri kimi Respublika Elmi-Texniki Kitabxanası (RETK) xüsusi əhəmiyyət kəsb edir. Kitabxananın qarşısında duran əsas vəzifə elmi-texniki ədəbiyyatın təbliğində fəal iştirak etməkdən, mühəndis-texniki işçilərin, sənaye fəhlələrinin informasiya tələbatını ödəməkdən, texniki kitabxana şəbəkəsinə metodik rəhbərlik etməkdən, eyni zamanda texniki kitabxana şəbəkəsini daha da təkmilləşdirib inkişaf etdirməkdən ibarətdir.

Əsası 1923-cü ildə Azərbaycan Mərkəzi İdarəsinin “Neftçilər” klubu yanında qoyulan RETK fəaliyyət göstərdiyi illər ərzində böyük tarixi yol keçmiş, respublikamızda bütün texniki kitabxanaların təşkilati-metodik mərkəzi kimi kitabxana tarixini zənginləşdirmişdir.

1960-cı illərdə RETK-nın informasiya axtarış sistemlərinin yeniləşdirilməsinin əsas istiqamətləri bunlardan ibarət idi: 1) Bütün texniki kitabxanaların müvafiq sənaye müəssisələrində yaradılan informasiya orqanlarının tərkibinə daxil edilməsi ilə əlaqədar olaraq təşkilati-metodik tədbirlərin həyata keçirilməsi; 2) Bütün texniki kitabxanalarda Universal Onluq Təsnifat (UOT) cədvəllərinin tətbiq edilməsi; 3) Texniki kitabxanaların bazası əsasında soraq-informasiya fondlarının yaradılması; 4) Texniki kitabxanaların müvafiq informasiya orqanları ilə birlikdə fəaliyyətinin müəyyənləşdirilib təşkil edilməsi[1].

Respublikada texniki kitabxanalar şəbəkəsinin inkişafı məqsədyönlü komplektləşdirmənin təşkili problemini meydana qoyurdu. Bu problemin həlli məqsədilə RETK Azərbaycanda texniki kitabxanalar şəbəkəsinin mərkəzləşdirilmiş qaydada komplektləşdirilməsi ideyasını irəli sürdü və onun icrasına başladı.

Həmin ildə 1965-ci ildə RETK-da “Patent ədəbiyyatı fondu”nun yaradılması mütəxəssislərə informasiya xidmətini xeyli yaxşılaşdırdı və onların vaxtına qənaət etmək imkanı verdi. Bu ixtisaslaşdırılmış fond dünyanın 35 ölkəsinin 27 dilində Beynəlxalq və Avropa patent idarələrinin sənədləri, həmçinin müəllif şəhadətnamələri ilə komplektləşdirilirdi. Respublikada yeganə olan Patent fondundan bütün müəssisə və təşkilatlar müvəffəqiyyətlə istifadə edirdilər.

---

[1] *Xələfov A. Respublika Elmi-Texniki Kitabxanası – 70 (1930-1970). Bakı, 2001, 46 s.*

1969-cu ildə RETK-da yaradılmış "Respublika standartlar və normativ-texniki sənədlər fondu" böyük elmi və təsərrüfat əhəmiyyətinə malik idi. Yerli və xarici ölkələrin normativ-texniki sənədləri və standartları ilə komplektləşdirilən bu fond böyük informasiya əhəmiyyətinə malik olmaqla respublikada mütəxəssislərin tələbatını ödəyən yeganə müəssisə idi.

Azərbaycanda "İnformasiyanın seçilib yayılması" avtomatlaşdırılmış informasiya sistemi (AİS) ilk dəfə 1968-ci ildə RETK-da yaradılmışdır. Bu sistem Elmi-Texniki İnformasiya İnstitutu ilə birlikdə elektron-hesablama maşınlarından istifadə etməklə həyata keçirilirdi. AİS-in əsasında 707 abonentə maqnit lentlərində müxtəlif informasiya mərkəzlərindən alınan informasiyalara dair siqnal məlumatları verilirdi. Respublikanın nazirlik və baş idarələrinin, müəssisə və təşkilatlarının rəhbərləri, aparıcı mütəxəssisləri bu sistem üzrə əsas abonentlər idilər.

RETK informasiya axtarış sistemlərinin təkmilləşdirilməsində soraq-biblioqrafiya aparatının rolunu nəzərə alaraq onun ayrı-ayrı tərkib hissələrini lazımi səviyyədə təşkil edə bilmişdir. Soraq və biblioqrafik nəşrlər fonduna daxil olan sənədlərin bir qismini 1920-ci ildən bəri çap olunmuş biblioqrafik vəsaitlər təşkil edir. Bunlar cari, retrospektiv və tövsiyə xarakterli göstəricilərdir. Onlardan Kitab Palatasının "Azərbaycan mətbuat salnaməsi", "Birillik Azərbaycan kitabiyyatı", "Azərbaycan kitabı"nın (1780-1920) I cildi (1963), "Azərbaycan kitab"nın (1920-1940) (1982) II cildi I kitabı xüsusi əhəmiyyətə malikdir.

Beləliklə, 1960-80-ci illərdə sahə mütəxəssislərin kitabxana-informasiya təminatında RETK-nın informasiya axtarış sistemlərinin böyük rolu olmuşdur. Lakin bəzi hallarda sahə mütəxəssislərinin kitabxana-informasiya təminatı onların tələbatına müəyyən dərəcədə uyğun gəlməmişdir. Bu isə tədqiqat dövrünün sonlarında iqtisadi çətinliklə bağlı kitabxanaya yeni nəşrlərin az daxil olması ilə əlaqədar olmuşdur. Ümumiyyətlə, Azərbaycanda texniki elmlər üzrə əsas kitabxana-informasiya mərkəzi olan RETK bu sahədə hələ çox iş görməlidir. Xüsusilə sahə mütəxəssislərinin informasiya təminatının operativliyinin və ardıcıllığının artırılması; informasiya axtarış sistemlərinin mövzu və məqsəd istiqaməti baxımından daha da genişləndirilməsi və yenilərinin yaradılması; müntəzəm olaraq sahə mütəxəssislərinin informasiya tələbatlarının öyrənilməsi və bunun əsasında kitabxana-biblioqrafiya fəaliyyətinin təşkil edilməsi; sahə mütəxəssislərinin fasiləsiz təhsil sisteminin təşkili qarşıda duran mühüm məsələlərdəndir.

**Dissertasiya içinin II fəsli “1990-2005-ci illərdə respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin yeniləşməsi istiqamətləri”** adlanır. Fəslin **“Elmi kitabxanalarda informasiya axtarış sistemlərinin tərkibinin təkmilləşdirilməsi”** adlı 1-ci paraqrafında qeyd olunur ki, son illər ərzində M.F.Axundov adına Milli Kitabxana zəngin inkişaf yolu keçmiş, tarixi təcrübə qazanmış, respublikanın baş kitabxana-biblioqrafiya müəssisəsi kimi formalaşmışdır.

Milli Kitabxananın informasiya axtarış sisteminin tərkib hissəsi olan SBA-nın “Rəsmi sənədlər” bölməsi son illər daha çox zənginləşmişdir. Burada 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının nəşrləri, ölkə Prezidentinin fərman və sərəncamları, Milli Məclisin Qanunlar Külliyyatının bütün cildləri, respublika qanunlarının müstəqil nəşrləri, Nazirlər Kabinetinin qərar və sərəncamları, digər rəsmi sənədlər cəmləşmişdir. Fondun “Rəsmi sənədlər” bölməsinin əsas prioritet istiqamətlərindən biri kimi ümummilli lider Heydər Əliyevin “Müstəqilliyimiz əbədidir” çoxcildliyi, onun çıxışları, məruzələri, Heydər Əliyev haqqında ədəbiyyat, o cümlədən məlumat nəşrləri, monoqrafiya və məcmuələr xüsusi əhəmiyyət kəsb edir. Milli Kitabxananın soraq-biblioqrafiya fondunda 1976-1992-ci illərdə nəşr edilmiş “Azərbaycan mədəniyyəti və incəsənəti haqqında yeni ədəbiyyat” biblioqrafik informasiya bülletenlərinin tam komplekti toplanmışdır [1].

Araşdırmalar göstərir ki, tədqiqat dövründə Milli Kitabxanadan istifadə edən oxucuların kitabxana-biblioqrafiya bilikləri, ümumilikdə informasiyadan istifadə etmək vərdişləri aşağı olmuşdur. Məhz bunun nəticəsidir ki, bu və ya digər mövzu ilə əlaqədar ədəbiyyatın axtarışı üçün müraciətlərə kitabxanaçı-biblioqraf tərəfindən verilən şifahi məsləhətlərin artması meyli hiss edilməmişdir. Halbuki kitabxananın hesabat materiallarından məlum olduğu kimi, bu sahədə müvafiq şöbələr tərəfindən məqsədyönlü işlər aparılmışdır.

---

[1] *Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995, 34 s.; “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya, 1999, №3, s.3-16; “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // “Azərbaycan” qəz., 2007, 21 aprel.; Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya, 2008, №2, s.7-30.*

Dissertasiya işinin II fəslinin 2-ci paraqrafı **“Elmi kitabxanaların informasiya axtarış sistemlərinə müasir kompüter texnologiyasının tətbiqi və elektron kataloq sisteminin yaradılması”** adlanır. Paraqrafda qeyd edilir ki, Azərbaycanda elmi kitabxanaların informasiya axtarış sistemləri üzrə elektron mənbələrin yaradılması problemi ümumilikdə milli elektron kitabxana-informasiya ehtiyatlarının yaradılması probleminin tərkib hissəsidir və buna görə də həmin problemə kompleks yanaşılmalıdır. XX əsrin 70-ci illərində sənəd-informasiya, o cümlədən kitabxana-biblioqrafiya proseslərinin yeni informasiya texnologiyaları əsasında yenidən qurulması sahəsində meyllər Azərbaycana da sirayət etdi. Bu sahədə ilk təcrübə Dövlət Plan Komitəsinin tabeliyində olan RETK-da başladı. Layihələşdirilən bu sistem SSRİ miqyasında yaradılan ümummilli elmi-texniki informasiya sisteminin tərkib hissəsi idi. Beləliklə, respublikamızda elmi kitabxanaların informasiya axtarış sistemləri sahəsində rəqəmsal biblioqrafik resursların yaradılması və istifadə edilməsi XX əsrin 80-ci illərinin əvvəllərinə təsadüf edir. Lakin bir sıra təşkilati, maliyyə və bürokratik əngəllər nəticəsində bu proses çox asta getmiş, SSRİ-nin süqutu ilə demək olar ki, dağılmışdır. Sonrakı illərdə bu sahədə eksperimentlər müxtəlif ali məktəblərin kitabxanalarında aparılmağa başladı. Belə ki, 1999-cu ildən BDU-nun Elmi Kitabxanasında, 2000-ci ildən Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzində elektron kataloqların yaradılması sahəsində işlər görüldü.

M.F.Axundov adına Milli Kitabxanada “Kitabxana-biblioqrafiya prosesinin avtomatlaşdırılması və informasiya texnologiyaları” şöbəsi kitabxana proseslərinin avtomatlaşdırılması ilə əlaqədar olaraq yaradılmışdır. 2005-ci ildə Milli Kitabxanada avtomatlaşdırma işinin ən vacib sahələrindən olan elektron kataloqun tərtibinə başlanmışdır. Kitabxananın elektron kataloqu dünyanın bir çox milli kitabxanaları tərəfindən geniş tətbiq olunan VTLS-Virtua sistemi əsasında qurulmuşdur. Bu sistemdən istifadə olunması qısa bir zamanda əlavə vaxt və vəsait sərf olunmadan Azərbaycan Respublikasının bütün kitabxanalarının toplu elektron kataloqunun yaradılmasına imkan yaradacaqdır. Elektron kitabxana resurslarının yaradılması “Qutenberq-Azərbaycan” adlı layihə çərçivəsində həyata keçirilmiş, kadr hazırlığı aparılmış və ədəbiyyatın elektron versiyasının hazırlanması üçün texniki avadanlıq əldə edilmişdir. 2000-ci ilin fevral ayından isə elektron resursların yaradılması şöbəsi müstəqil struktur kimi fəaliyyət göstərir.

2005-ci ildən Milli Kitabxanada milli ədəbiyyata dair biblioqrafik yazıları əhatə edən elektron kataloqun yaradılmasına başlanmışdır. Avrasiya Fondunun, Acıq Cəmiyyət İnstitutunun İnformasiya Yardım Fondu və Təlim-Tədris Mərkəzi İRTCL-in maliyyələşdirdiyi layihə çərçivəsində Milli Kitabxanaya VTLS proqramı və VTLS proqramının bütün avtomatlaşdırılmış işçi yerləri (AİY) alınmışdır. Hazırda kitabxanada Komplektləşdirmə, Kataloqlaşdırma və Kitab verilişi AİY-ləri fəaliyyət göstərir, digər AİY-lərin fəaliyyətə başlaması sahəsində işlər görülür. VTLS proqram təminatının üstün cəhətlərindən biri də biblioqrafık yazıların MARC 21 formatında təqdım olunmasıdır.

Son dövrlərdə AMEA MEK-də oxuculara xidmət işinin təşkili, nadir nəşrlərin mühafizəsi və konservasiyası, kitabxana işinin avtomatlaşdırılması sahəsində apardığı elmi işlər uğurlu nəticələr vermişdir. Kitabxana kollektivin elmi-tədqiqat işlərinin nəticələrini işıqlandırmaq üçün dövri elmi nəşrlər buraxmağa nail olmuşdur. 2000-2004-cü illərdə MEK "Orucov qardaşları mətbəəsi", "Qafqaz ərazilərinin və xalqlarının təsvirinə dair materiallar toplusu", "ABŞ Konqres Kitabxanası", "Füzuli sehri", "AMEA kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu", "Vebiblioqrafiya" kimi elmi, nəzəri və metodik əsərlər çap etdirmişdir[1].

Kitabxana işinin bütün fəaliyyət sahələrinin bütövlükdə avtomatlaşdırılması və kompüterləşdirilməsini qarşısında məqsəd qoyan MEK-də 2003-cü ildə yaradılmış "Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsi ölkəmizdə və xarici ölkələrdə kitabxana işinin kompüterləşməsində baş verən prosesləri öyrənməklə, dünya təcrübəsindən istifadə əsasında öz işini yerli şəraitə uyğun qurmağa müvəffəq olmuşdur. MEK Azərbaycan Kitabxana-İnformasiya Konsorsiumuna daxil olmuş, EBSCO elektron məlumat bazasından 40 min xarici tammətnli elmi jurnaldan İnternet vasitəsilə istifadə etməyə başlamışdır. Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq edilmiş AMEA Nizamnaməsinə əsasən MEK-a elmi status verilmişdir. Bununla əlaqədar kitabxana elmi-tədqiqat institutu hüququ əldə etmiş, öz strukturunda ciddi dəyişikliklər etmişdir. Kitabxanada elmi şura, bilavasitə elmi-tədqiqat işi aparan yeni şöbələr yaradılmışdır. "Heydər Əliyev irsinin təbliği", "Kitabxanaşünaslıq", "Kitabşünaslıq", "Kitabxana proseslərinin avtomatlaşdırılması" və s. şöbələri buna misal göstərmək olar.

---

[1] *Əliyeva-Kəngərli A. Vebiblioqrafiya: yeni tipli nəşrin Azərbaycanda perspektivləri // "525-ci qəz.", 2005, 4 yanvar.*

MEK 2003-cü ildə müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyevin elmi-nəzəri irsini təbliğ etmək üçün "Azərbaycan dövlətçiliyi ilə Heydər Əliyev kitabxanası" təşkil etmişdir. Heydər Əliyevin əsərlərini və onun haqqında olan əsərləri, dövlətçilik, Azərbaycançılıq, milli ideologiyaya aid əsərləri özündə əks etdirən bu kitabxana geniş oxucu auditoriyası ilə əhatə edilmişdir. Hazırda bu kitabxananın fondunda 1000-dən artıq ədəbiyyat toplanmış, onun elektron kataloqu yaradılıb oxucuların istifadəsinə verilmişdir.

Beləliklə, AMEA-nın Mərkəzi Elmi Kitabxanası son illərdə öz maddi-texniki bazasını möhkəmləndirmiş, müasir kitabxana-informasiya texnologiyası ilə təmin edilmiş, kitabxana işinin informasiyalaşdırılması sahəsində əhəmiyyətli uğurlar əldə etmişdir.

2002-ci ildə Dövlət Elm və Texnika Komitəsinin ləğv edilməsi ilə əlaqədar RETK Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin tabeçiliyinə verilmişdir. Agentlik kitabxana işinə diqqəti xeyli artırmış, onun maliyyə vəziyyəti yaxşılaşdırılmış, rəhbərliyi möhkəmləndirilmişdir.

2004-cü ilin aprel ayında agentliyin tövsiyələri və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin nəzdində RETK-nın filialının bazasında Naxçıvan MR-in Elmi-Texniki Kitabxanası yaradılmış və bu kitabxana öz fəaliyyətində RETK-nın qabaqcıl iş təcrübəsini əsas götürmüşdür.

RETK özünün elektron kataloqunun formalaşdırılması istiqamətində müəyyən işlər görmüşdür. Bu baxımdan İRBİS-64-ün ən çox istifadə edilən əməliyyat sistemləri əsasında qurulması imkanı, kitabxana-biblioqrafiya proseslərinin bütün kompleksini əhatə etməsi, iş prosesində davamlılığı, korporativ şəbəkələrlə əlaqəli işləmək imkanı, beynəlxalq standartları və təsnifat sistemlərini, Veb texnologiyalarını dəstəkləməsi və s. müsbət xüsusiyyətləri əsas götürülmüşdür. Bu sistemin köməyi ilə RETK-da qısa müddətdə respublikada elektron kitabxana yaradılmasına başlanmış və oxuculara məsafədən xidmət texnologiyası tətbiq edilmişdir. Sistem vasitəsilə 2003-cü ildən başlayaraq kitabxanaya daxil olan bütün ədəbiyyatın biblioqrafik yazıları elektron kataloqa daxil edilir. Sistem oxucuların müxtəlif aspektli sorğularını hərtərəfli təmin etmək üçün geniş axtarış imkanına malikdir. Onun vasitəsilə analitik təhlil, elmi-tədqiqat, ictimai-siyasi fəaliyyətlə məşğul olan oxucu qruplarına kömək etmək məqsədilə 12 adda daim yeniləşən tammətnli elektron nəşr, 7 adda cari elektron biblioqrafik nəşr hazırlanmışdır.

Müxtəlif oxucu qruplarının marağını nəzərə alaraq kitabxanada bir neçə aktual mövzu üzrə ("Ekologiya", "Bələdiyyə hakimiyyəti", "Azərbaycan diasporu") tammətnli elektron nəşrlər hazırlanmışdır.

Ümumiyyətlə, hazırda kitabxana İRBİS-64 AKİS-nin "Komplektləşdirici", "Kataloqlaşdırıcı", "Oxucu", "Kitab verilişi" və "İnzibatçı" AİY-lərini tətbiq etmişdir. Kitabxanaya daxil olan hər bir çap məhsulu (kitab, qəzet və jurnallar) elektron kataloqa daxil edilir. Elektron kataloqa daxil edilən materiallar əsasən Azərbaycan rus və ingilis dillərindədir. Məlumat bazasının idarəetmə sistemi kimi CDS/SİS-dən istifadə edilir.

Beləliklə, dünyada mövcud olan təcrübələr göstərir ki, kitabxanaların avtomatlaşdırılması böyük maliyyə vəsaiti, işçi qüvvəsi və müəyyən vaxt tələb edən çoxmərhələli, mürəkkəb məsələlərdən biridir. Müasir dövrdə kitabxanalar arasında birbaşa informasiya mübadiləsi elektron informasiya mübadiləsi ilə mümkündür. Elektron biblioqrafik informasiya mübadiləsi isə şəbəkə elektron kataloqla həyata keçirilə bilər. Yekun olaraq belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycan kitabxanalarında elektron kataloqların inkişafı prosesi tezliklə daha da sürətlənəcək və bu sahədə dünyada mövcud olan qabaqcıl təcrübə səviyyəsinə çatacaqdır.

Dissertasiya işinin III fəsli "**Respublika elmi kitabxanalarinda informasiya axtarış sistemlərinin cəmiyyətin informasiyalaşdirilmasi proseslərindəki yeri"** adlanır. **"Cəmiyyətin informasiyalaşdırılması vəzifələri ilə əlaqədar elmi kitabxanalarda informasiya axtarış sistemlərinin əsas inkişaf istiqamətləri"** adlanan 1-ci paraqrafda qeyd edilir ki, respublikamız müstəqillik əldə etdikdən sonra cəmiyyətin bütün fəaliyyət sferalarında olduğu kimi, kitabxana işi sferasında da ciddi və radikal islahatlar getmişdir. Respublikada tarixən ilk tətbiqi elmi-tədqiqat işləri aparan kitabxana RETK olmuşdur.

XX əsrin 60-cı illərindən RETK-da tətbiqi elmi tədqiqatlar aparılmış, onların nəticələri iri kitabxanalarda tətbiq edilmişdir. Məsələn, "İnformasiyanın seçilmiş yayılması"nın avtomatlaşdırılmış sistemi 1990-cı illərin sonlarına qədər sabit fəaliyyət göstərmişdir. Bu sistem 4500-dən çox müəssisə və idarəyə (kollektiv abonentlər), 5 mindən çox alim və mütəxəssisə, 200-dən çox rəhbər partiya və təsərrüfat orqanları işçilərinə 25 min daimi sorğu üzrə həftəlik siqnal informasiyası və "əks əlaqə" üsulu ilə sənədlərin əslini və ya surətini göndərmişdir.

XX əsrin 70-ci illərinin ortalarından başlayaraq RETK-da ilk dəfə "İnteqral avtomatlaşdırılmış kitabxana-informasiya sistemi" (RIAKIS) işlənməyə başladı. RETK-da işlənən RIAKIS sənəd/məlumat bankından

və altı nisbi-müstəqil altsistemdən (Avtomatlaşdırılmış komplektləşdirmə, Sənədlərin işlənməsi, Fondun təşkili və mühafizəsi, Kitabxana xidməti, Biblioqrafik informasiya, Maliyyə-iqtisadi fəaliyyət) ibarət idi. 80-ci illərin sonlarına qədər sənəd/məlumat bankı və "Kitabxana xidməti" altsistemi işlənib tətbiq edilmişdi. Bir sıra respublikalar (məs: Estoniya, Özbəkistan, Qazaxıstan) RIAKIS-i layihə və mərhələli tətbiq variantını da satın almaq üçün (satış qiyməti 200 min rubl həddində idi) RETK ilə anlaşma müqaviləsi bağlamışdı. Lakin SSRİ-nin dağılması RIAKIS sahəsində bütün işlərin dayandırılmasına səbəb oldu.

Müstəqillik illərində RETK-nın strukturunda dəyişikliklər aparılmış, "Yeni informasiya texnologiyaları" şöbəsi yaradılmışdır. Kitabxana İnternet şəbəkəsinə qoşulmuş, özünün Veb səhifəsini açmışdır. Dünya kitabxanalarına çıxmaq üçün elektron kataloq yaradılması ən vacib məsələlərdən biridir. Kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, İRBİS-64 "Kitabxanaların Avtomatlaşdırılmış Sistemi"nin nümayiş versiyasında elektron kataloqun əsası qoyulmuşdur. Şöbədə elektron informasiya daşıyıcıları toplanmışdır. RETK 2002-ci ildən məlumat bazası yaratmağa başlamışdır. Baza müntəzəm olaraq təkmilləşir, sistemə daxil olan kitabxanaların dinamikası diqqət mərkəzində olur.

**"Müasir şəraitdə cəmiyyətin informasiyalaşdırılması istiqamətində elmi kitabxanalar və onların inkişafı ilə əlaqədar yürüdülən dövlət siyasəti"** adlanan 2-ci paraqrafda qeyd edilir ki, dünya birliyinin sosial-iqtisadi və mədəni inkişaf genezisində əsas etibarilə 4 mühüm mərhələ fərqləndirilir. Bu mərhələlərin birindən digərinə keçid ayrı-ayrı cəmiyyətlərdə spesifik kəmiyyət və keyfiyyət dəyişiklikləri effektləri yaratmaqla yanaşı, yeni dəyərlərin və ictimai münasibətlərin formalaşmasına səbəb olmuşdur. Hazırkı dövrdə cəmiyyətdə informasiya və biliklərin rolu sürətlə dəyişir və daha cox əhəmiyyət kəsb edir.

Tədqiqatın bu mərhələsi bütövlükdə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın missiyasına və onun əsas məqamlarının tədqiqinə həsr edilmişdir. Problemə məhz bu kontekstdən yanaşdıqda ölkə rəhbərinin 6 oktyabr 2008-ci il 3072 nömrəli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proq-

ramı”[1] xüsusi əhəmiyyət kəsb etməkdədir. Bu proqramla yanaşı 1998-ci ildə qəbul edilmiş “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu da bu sahədə görülən işlərə nümunə kimi göstərilə bilər [2].

Prezident İlham Əliyevin Türkdilli Ölkələrin Milli Kitabxana Direktorlarının Konfransı və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubunda da qeyd etdiyi kimi, “Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşdirilməsi proseslərinə öz layiqli töhfələrini verməkdədir”[1].

Bu sahədə tətbiq edilən İRBİS-64 avtomatlaşdırılmış kitabxana informasiya sistemi MDB məkanında elmi-texniki və kütləvi kitabxanalar tərəfindən geniş tətbiq edilən ilklərdən biri kimi ciddi əhəmiyyətə malik olsa da digər alternativlər kimi MİLLENİUM, VTLS, FOLLET, ALEPH və s. tətbiqidə mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya işinin **“Nəticə”** hissəsində tədqiqata yekun vurulmuş və Azərbaycanda elmi kitabxanaların axtarış sistemlərinin təkmilləşdirilməsi və informasiya cəmiyyətinin tələbləri səviyyəsinə qaldırılması üçün göstərilən tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd edilmişdir:

1. Azərbaycanda elmi kitabxanaların informasiya axtarış sistemlərinin təkmilləşdirilməsi üçün bu sahədə xeyli təcrübə qazanmış M.F.Axundov adına Milli Kitabxananın, MEA MEK-nın, RETK-nın əlaqələrinin daha da möhkəmləndirilməsi və təcrübə mübadiləsinin aparılmasını təmin edən tədbirlər müəyyənləşdirilməli və həyata keçirilməlidir;

2. Elmi kitabxanaların elektron resursları, onların informasiya axtarış sistemlərinin təkmilləşdirilməsi səviyyəsi ölkənin sosial-iqtisadi inkişafına uyğun olan səviyyəyə çatdırılmalı, eləcə də ölkənin sosial-iqtisadi

---

*[1] Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal (Bakı Universiteti Nəşriyyatı), 2008, №2, s.7-30.*

*[2] İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu // “Azərbaycan” qəz.,1998, 23 iyun.*

*[1] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Türkdilli Əlkələrin Milli Kitabxana Direktorların Konfransı və “Avrasiya Kitabxanalar Assambleyası” Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubu: 17 noyabr 2008-ci il // "Xalq qəz.", 2008, 18 noyabr.*

inkişafında əldə edilmiş nailiyyətlərə uyğun olaraq elektron biblioqrafik məlumat bazalarının, elektron kataloqların və elektron kitabların, elektron kitabxananın yaradılması sahəsində fəaliyyəti genişləndirilməlidir;

3. Elmi kitabxanalarda işləyən kitabxanaçı və biblioqraflara elektron kataloqlar, biblioqrafik məlumat bazalarının yaradılması texnologiyasının öyrədilməsi və ixtisaslı kadrların yetişdirilməsi və bu məqsədlə distant təhsil təşkil edilməlidir;

4. Ölkənin bütün elmi kitabxanalarında olan elektron kataloq və elektron biblioqrafik ehtiyatları haqqında informasiyanın toplanması və onlardan daha səmərəli istifadə edilməsi əsas vəzifələrdən olmalıdır;

5. Respublikamızın iri kitabxanalarında saxlanılan mədəni sərvətlərin bütün vətəndaşlar üçün müyəssərliyini təmin etməkdən ötrü fondların rəqəmsal daşıyıcılara köçürülməsi və bununla İNTERNET əlaqələrinin təmin edilməsi öz həllini tapmalıdır;

6. İnformasiya axtarış sistemlərinin yaradılması və istifadəsi sahəsində yeni texnologiyaların, metodların geniş tələbatçı kütləsi arasında təbliğ edilməsi, onların imkanlarının izah edilməsi həyata keçirilməlidir;

7. Mütəxəssislərin sənəd informasiya və biblioqrafik təminatının təkmilləşdirilməsi üçün digər ölkələrdə bu sahədə fəaliyyət göstərən kitabxanalar, kitab palataları, informasiya təminatı müəssisələri ilə qarşılıqlı faydalı əlaqələrin qurulması, elektron formatda biblioqrafik informasiya mübadiləsinin həyata keçirilməsi diqqətdə saxlanılmalıdır;

8. Yeni informasiya-kommunikasiya texnologiyalarının kitabxana işçilərinə öyrədilməsi üçün mütəxəssislərin dəvət olunması, yerlərdə treyninqlərin təşkili, təlim-tədris mərkəzinin yaradılması, elektron kataloqun təşkili məsələlərinin sürətləndirilməsi həyata keçirilməlidir;

9. Elmi kitabxanaların fəaliyyətlərinin koordinasiya edilməsi, diferensasiyası və vahid informasiya axtarış sisteminin və vahid toplu kataloqunun yaradılması nəzərdə saxlanılmalıdır;

10. Vahid Azərbaycan informasiya məkanının formalaşdırılması sahəsində tədbirlər görülməli, bu məqsədlə elmi kitabxanalar arasında treyninqlər təşkil olunmalı, təlim-tədris mərkəzi yaradılmalıdır.

Əminliklə demək olar ki, bütün bu təklif və tövsiyələrin həyata keçirilməsi respublikamızda cəmiyyətin sənədli informasiyaya olan tələbatının daha dolğun, keyfiyyətcə daha yüksək səviyyədə ödənilməsinə imkan yarada və ölkəmizin sosial-iqtisadi və elmi-mədəni inkişafının sürətləndirilməsinə güclü təkan verə bilər.

**Dissertasiyanın əsas məzmunu tədqiqatçının mövzu ilə bağlı çap olunmuş aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**


*1. Kitab fondunda sosial siyasi ədəbiyyatın yeri: Məqalə // Xəzər Xəbər: Elmi-kütləvi, bədii-publisistik toplu (Xəzər Universiteti), 15 aprel 2005, s.32-33.*

*2. Müasir dövrdə informasiya xidmətinin təşkili xüsusiyyətləri: Məqalə // Xəzər Xəbər: Elmi-kütləvi, bədii-publisistik toplu (Xəzər Universiteti), 1 noyabr 2007, s.14-15.*

*3. Respublika informasiya axtarış sistemlərinin formalaşması: Məqalə // Xəzər Xəbər: Elmi-kütləvi, bədii-publisistik toplu (Xəzər Universiteti), 1 mart 2008, s.34-35.*

*4. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında informasiya axtarış sistemlərinin forma-laşması (1971-1980-ci illər): Məqalə // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal (Bakı Dövlət Universiteti), 2009, №2, s.100-109.*

*5. Müstəqillik şəraitində Respublika Elmi Texniki Kitabxanasında informasiya axtarış sistemlərinin formalaşması: Məqalə // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal (Bakı Dövlət Universiteti), 2010, №2. S.75-82.*

*6. Azerbaycan Milli Bilimlər Akedemisi, Merkezi Bilim Kütuphanesinde Bilgi Arama Sistemlerinin Teşekkülüne Dair bazı Hüsuslar (XX yüzyılın 70-80-ci yılları): Məqalə // Turan: Elmi əsərlər toplusu (Türkiyə, İstanbul), 2010, s.95-100.*

*7. Sənəd-informasiya fondunun formalaşmasında elektron resursların əhəmiyyəti: Məqalə // Kitabşünaslıq və nəşriyyat işi: Elmi-nəzəri və təcrübi jurnal (Bakı Dövlət Universiteti), 2010, №2, s.90-94.*

*8. Milli kitabxanaşünaslığımızın korifeyi: Məqalə // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və təcrübi jurnal (Bakı Dövlət Universiteti), 2011, №3, s.108-109.*

*9. Milli kitabxana sistemində informasiya axtarış sistemləri: Məqalə // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal (Bakı Dövlət Universiteti), 2011, №2, s.64-71.*

*10. Milli kitabxana sistemində müasir informasiya axtarış sistemlərinin tətbiqi xüsusiyyətləri: Tezis // Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransı. Bakı, 2012, s.47-48.*

*11. Azərbaycan Respublikasının elmi-texniki kitabxana sisteminin formalaşması xüsusiyyətləri: Tezis // Kitabxanaçılıq-informasiya fakültəsinin yaranmasının 65 illiyinə həsr olunmuş "Kitabxana-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri" adlı gənc tədqiqatçıların Respublika Elmi Konfransı. Bakı: Bakı Dövlət Universiteti, 2012, s.64-71.*

*12. Azərbaycan Respublikasının informasiya cəmiyyətinə inteqrasiyası istiqamətində reallaşdırılan dövlət proqramları və onların əsas xüsusiyyətləri: Məqalə // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal (Bakı Dövlət Universiteti), 2012, №1 (30), s.64-68.*

*13. Elektron informasiya resursları kitabxananın informasiya potensialının artırılması vasitəsi kimi: Məqalə // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. Bakı, 2013, №1 (32), s.40-47.*

*14. İnformasiya axtarış sistemlərinin elmi kitabxanalarda tətbiqi məlumat azadlığının realizə forması kimi: Məqalə // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2013, №4 (88), s.309-311.*

*15. Elmi kitabxanaların istifadəçilərinin informasiya təminatında hüquqi sənədlərin əhəmiyyəti: Məqalə // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı, 2013, №4, s.396-399.*

*16. Роль правовых документов в информационном обеспечении пользователей научных библиотек: Статья // Вектор науки: Тольятти, 2014, №2 (17), с.38-39.*

*17. Оснавные направления совершенствования информационно-поисковой системы библиотеках (1990-2005 года): Статья // Гілея: Науковый вісник.Киів,2014, вып. 84 (№5), с.239-242.*

*18. Müasir dövrdə elmi kitabxanalarda informasiya axtarış sistemlərinin tərkibinin təkmilləşdirilməsinin bəzi nəzəri məsələləri // Tarix və onun problemləri: nəzəri, elmi-metodik jurnal.Bakı,2014, №2, s.301-305.*

*19. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında informasiya axtarış sistemlərinin formalaşması: Tezis // BDU-nun 95 illiyinə həsr olunmuş Kitabxana-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri mövzusunda respublika elmi konfransının materialları. Bakı, 2014, s.66-68.*

**Zahida Tofiq gizi Rzayeva**

# FORMATION STAGES OF INFORMATION RETRIEVAL SYSTEMS IN NATIONAL SCIENTIFIC LIBRARIES. (The Mirza Fatali Akhundov National Library of Azerbaijan, The Central Scientific Library of ANAS, Nationaln Scientific and Technical Library (1960-2005)

## SUMMARY

*This thesis is dedicated to the research of development stages of information retrieval systems in national scientific libraries*

*The thesis consists of a preface, 3 chapters, conclusion and a reference list.*

*Such issues as the relevance of the topic, goals, objectives and a subject of the research, scientific innovations, methods and sources of a given work are stated in the preface national.*

*In the first chapter the formation of a information retrieval system of the Mirza Fatali Akhundov National Library of Azerbaijan, the CSL NAS of Azerbaijan, the National Scientific and Technical Library has been studied.*

*The second chapter is called "The course of information retrieval systems' improvement in the national scientific libraries in 1990-2005" This chapter analyzes the basic aspects of information retrieval systems' advance in the national scientific libraries.*

*The third chapter is dedicated to the problem of information retrieval systems' improvement in the national libraries under the conditions of the society informatization.*

*Conclusions of the conducted work are stated at the end of the thesis. In the part of "Conclusions of the thesis" further ways of development are stated and a number of suggestions and recommendations are provided in order to improve the works in this sphere.*

**Захида Тофик гызы Рзаева**

# ЭТАПЫ ФОРМИРОВАНИЯ ИНФОРМАЦИОННО ПОИСКОВЫХ СИСТЕМ В РЕСПУБЛИКАНСКИХ НАУЧНЫХ БИБЛИОТЕКАХ (Национальная библиотека имени М. Ф. Ахундова, Центральная Научная Библиотека АНАН, Республиканская Научно-Техническая Библиотека (1960-2005 годы))

## РЕЗЮМЕ

*Данная диссертация посвящена исследованию этапов развития информационно поисковых систем в научных библиотеках Азербайджанской Республики.*

*Диссертация состоит из введения, 3 глав, заключения и списка использованной литературы.*

*Во введении излогаются такие вопросы, как актуальность темы, цели и задачи исследования, обьект исследования, научная новизна, теоретичные и практические значения исследования, методы и источники данного труда.*

*Первая глава диссертации называется "Состояние и формирование информационно поисковых систем в республиканских научных библиотеках в 1960-1980 годах". Здесь были исследовано формирование информационно-поисковых системы национальной библиотеки им. М.Ф.Ахундова, ЦНБ НАН Азербайджана, республиканнской научно-технической библиотеки.*

*Вторая глава диссертации называется "Направление улучшения информационно поисковых систем в республиканских научных библиотеках 1990-2005 годах". Данной главе анализируются основные аспекты совершенствования информационно поисковых систем научных библиотек республиканского уровня.*

*Третья глава посвящена проблеме совершенствования информационно поисковых систем республиканских библиотек в условиях информатизация общества.*

*В конце диссертации излагаются заключения проведённой работы. Здесь отмечаны дальнейшие пути развития, предоставлен ряд предложений и рекомендаций с целью усовершенствования работ в данной сфере.*

Çapa imzalanıb: 06.01.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat – Poliqrafiya mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЗАХИДА ТОФИК гызы РЗАЕВА**

# ЭТАПЫ ФОРМИРОВАНИЯ ИНФОРМАЦИОННО-ПОИСКОВЫХ СИСТЕМ В РЕСПУБЛИКАНСКИХ НАУЧНЫХ БИБЛИОТЕКАХ

**(Национальная библиотека имени М.Ф.Ахундова,
Центральная Научная Библиотека АНАН,
Республиканская Научно-Техническая Библиотека
(1960-2005 годы))**

Специальность: 3356.01
Библиотековедение, библиографоведение и
книговедение

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ – 2015**